https://doi.org/10.59849/3006-1342.2025.3.37
UOT 94(479.24)

*Elgün Məhəmmədəli oğlu Aslanov*
*Azərbaycan Dövlət Aqrar Universiteti*
*tarix üzrə fəlsəfə doktoru, dosent*
*E-mail: e.aslanov85@mail.ru*
*ORCID ID: 0009-0003-9856-1219*
*Dünya Xaliq qızı Həsənova*
*Azərbaycan Dövlət Aqrar Universiteti*
*Müəllim*
*E-mail: dunya.hasanova@inbox.ru*

# AZƏRBAYCAN TARİXİNDƏ VƏ MƏDƏNİYYƏTİNDƏ HÜRUFİLİK

*Hürufiliyin Azərbaycanda təşkilatlanması XIV əsrin sonlarında başlanmışdır. Hürufilərin fəlsəfi dini fikirləri orta və yaxın şərqin fəlsəfəsindən bəhrələnmişdir. Azərbaycanda Nəimi, Nəsimi, Sururi, Əli-ül Əla kimi nümayəndələri ilə tanınan hürufilik geniş ərazilərdə yayılmışdır. Hürufilik bir çox bölgələri (İran, Azərbaycan, Suriya, Osmanlı) əhatə edirdi. Bu təriqətin əsas nümayəndələri kəndlilər və şəhər ziyalıları idi. Nəsimi hürufilik təliminin tanınmış nümayəndələrindən biri kimi bu təlimin yayılmasında mühüm rol oynamışdır. Onun şeirlərində hürufi fəlsəfəsinin izləri açıq-aydın görünür. Ümumiyyətlə, hürufi irsi Azərbaycan xalqının ədəbiyyatında və mənəvi həyatında bu günədək yaşamaqdadır.*

*Açar sözlər:* hürufilik, təriqət, fəlsəfi fikir,hərf, ideologiya, cərəyan

Azərbaycanın orta əsrlər ictimai, dini-fəlsəfi və ədəbi-mədəni gerçəkliyində öz əksini tapan cərəyanlardan biri hürufilikdir. Hürufilik dini-fəlsəfi təriqət kimi, əsasən, XIV-XV yüzilliklərdə özünü təzahür etdirir. Panteist dini-fəlsəfi düşüncəni əsas götürən bu cərəyan XIV-XV yüzilliklər Azərbaycan ədəbi-mədəni mühiti və bədii fikri ilə o qədər sıx və əsaslı şəkildə qaynayıb qovuşur ki, onu nəzərə almadan həmin dövr ədəbiyyatımızı bir bütöv olaraq dərk etmək mümkün deyil.

Hürufi anlayışı ərəbcədə "hərf" sözündəndir. Hürufi ideoloqları yazı sistemindəki işarələri müqəddəs sayırdılar [2, s. 297]. Onların fikrincə bu hərflər dünyanın yaranış sirlərini, gerçəkliyi özlərində hifz etmişdi. Müqəddəs kitablardan, klassik bilik ənənəsindən alınmış olan hər hansı bir yazı və ya deyim, "ənə-l-həqçilik" fəlsəfəsi qəlibinə salınırdı.

Hürufilərə görə Haqq insanın özündədir və insan vücudu bütün mənəvi və maddi varlığı özündə əks etdirən bir güzgüdür. İnsan bu həqiqəti sadəcə olaraq dərk edə bilmir. Əgər insan Tanrını görmək istəyirsə, onu öz varğılında axtarmalıdır. Çünki bəşər övladı hər iki aləmdə ilahiyə sərçeşmədir. Hərgah o, məna aləmindən xəbərdar olsa, əbədiyyəti yer üzündə axtarıb elə özündə tapar. Hürufilik hərəkatı islam dininə münasibətdə onun ehkamlarına qarşı tənqidi mövqe tutmuş, daha dəqiq desək, ona qarşı müxalifətdə olmuşdur.

Başqa sözlə, Haqqa aid bəzi nişanələr bir dəlil kimi bəşər övladının simasında inikas etmişdir. Məsələn, insanın üzündə «Allah» sözü yazılmışdır. Belə ki, insanın burnu ərəb əlifbasındakı «əlif» ( ا), burun pərləri «lam» ( ل), gözü isə «ha» ( ح) hərflərinə bənzədilir ki, «Allah ( ﷲ) kəlməsi də bu hərflərin birləşməsindən yaranır.Cənabi-Haqq insanın üzündə təzahür edir və insanı fərqləndirən bir kəlamdır.Bu kəlamın ünsürlərində də bir qiyməti ədədiyyə var: üzdə dörd kirpik, iki qaş, bir saç vardır ki, yeddi edər.Bu yeddini dörd ünsür ilə zərb etsək, ərəb əlifbasının 28 hərfini təşkil edər, yaxud başqa bir tərzdə belə izah olunur:

dörd kirpik, iki qaş və savadi-əzəm deyilən saç. Bu yeddi xütubi-ümmiyə kimi izah edilir ki, hər insan üzündə bu xətlər ilə doğulur [4, s. 106].

Hürufiliyin banisi XIV əsrdə yaşamış təbrizli mütəfəkkir Fəzlullah Əbülfəzl Nəimidir. Əsl adı Əbdürrəhman, atasının adı Əbuməhəmməd olan Nəimi hürufilik təriqətinin müəssisi olduğuna görə «Əl-Hürufi» ləqəbi ilə tanınmışdır. Nəimi ömrünün müəyyən hissəsini səyahətdə keçirmişdir. 1369-cu ildə İsfahana, 1373-cü ildə Məkkəyə səfər etdiyi məlumdur.

Nəimi işini və çevrəsini buraxıb həyatının yeni aşamasına,yəni hürufi fəaliyətləri aşamasına girdi. O, yuxu yozma əməli ilə də məşğul olurdu. Buna görə də "yuxu yozumçusu" adı ilə məşhurlaşmışdı. Onun fəlsəfi fikirləri "Ərşnamə" və "Cavidannamə" kimi əsərlərində əks olunmuşdur. Nəimi ən önəmli əsəri olan "Cavidannamə"ni Farscanın Əstərabad ləhcəsində yazmışdır. «Cavidannamə» hürufilik təliminin ən mötəbər qaynağı, bu təriqətin əsas ideya, məqsəd və baxışlarını özündə əks etdirən təlim kitabı hesab olunur.

Bütövlükdə əlimizdə olmayan və yalnız müəyyən fraqmentləri gəlib bizə çatan «Növmnamə» isə yuxu haqqında kitabdır. Burada Fəzlullahın 30 yaşından ölümünə qədərki bir çox yuxuları və peyğəmbərliyi şərh edilir. Əsərdə müəllifin tərcümeyi-halına dair bəzi notlar, həmçinin hürufiliyin ilkin dövrdə yayılma mexanizminə aid məlumatlar da mövcuddur. Eyni zamanda, burada Nəiminin mötəbər müridlərindən Nəsimi ilə münasibətləri və yazışmaları barədə də məlumat vardır.

Müəllifin son əsəri «Vəsiyyətnamə»dir. «Vəsiyyətnamə» nə bədii, nə də dini-fəlsəfi əsər deyil. O, epistolyar janrdadır. Daha doğrusu, mütəfəkkirin həbs edildikdən sonra məhbəsdən öz inanılmış müridlərinə yazdığı bir neçə məktubu əhatə edir. Həmin məktublar göstəriş, bir növ müəllifin öz xəlifə və müridlərinə, həmçinin qızlarına vəsiyyət xarakterindədir.

Hürufilər Nəiminin kitablarını anlaya bilmələri üçün Əstərabad sözlüyü adında bir kitab yazmışlar. Bu kitabda Nəiminin kitablarında keçən Əstərabad ləhcəsi sözlərinin açıqlaması verilmişdir. Britaniya muzeyində saxlanan bu kitab "Lüğəti-Əstərabadi" adlanır.

Hərfi hər şeyin əsası hesab edən Nəimiyə görə bütün əşyalar hərflərin təzahürüdür: «Əgər kəlməni cismin varlığından ayırsaq, onun vücudu olmaz». «Söz olmasaydı,Allah-taalanı tanımaq mümkün olmazdı». Nəimiyə görə bütün elmlər bir nöqtədə birləşir, həmin nöqtə isə 28 və 32 hərfdən yaranan elmdir. İnsana münasibətdə hürufilərin özünəməxsus mövqeyi vardır. Onlardakı insan konsepsiyası başqa dini-fəlsəfi təriqət və cərəyanlardan fərqlənir.

Məhz Nəimi yaradıcılığının tədqiqi əsasında belə bir nəticəyə gəlmək olar ki, hürufilik ideologiyası Azərbaycanın fəlsəfi, ictimai-siyasi və hüquqi fikrinin zülmə və istibdada sosial ədalətsizliyə və haqsızlığa qarşı inikasıdır.Hürufilik böyük ideya cərəyanı və möhtəşəm hərəkat kimi ilk dəfə Azərbaycanın qədim mədəni mərkəzlərindən olan Naxçıvanda yayılmışdır. Hürufilik sosial- siyasi hərəkat kimi, hər şeydən əvvəl, teymurilərə qarşı mübarizədə görkəmli ideoloji rol oynamışdır [4, s. 104].

Hürufilik işinin böyük bir siyasi təhlükəyə çevrildiyini görən Teymur, Səmərqənd Ülamə yığıncağının fitvasını dərhal yerinə yetirməyi Azərbaycanda olan oğlu Miranşaha əmr etdi. Miranşahın tələbi ilə Fəzlullah Nəimi Şirvan dövləti ərazisindən çıxarıldı, sonra isə tutulub Naxçıvan ölkəsində Miranşaha verildi. Artıq altı il Əlincə qalasını mühasirədə saxlayan, bu qalanın qəhrəman dirənişini qıra bilməyən Miranşah 1393-cü ildə Fəzlullah Nəimini amansızcasına öldürtdü [2, s. 298].

XIII-XV əsrlər Azərbaycan ədəbiyyatının ən böyük ədəbi siması və bu dövr ana dilli şeirimizin mübahisəsiz olaraq birinci şəxsiyyəti sayılan, Fəzlullah Nəiminin yetirməsi İmadəddin Nəsimi də hürufilik təriqətinin nümayəndəsi olmuşdur. Onun bənzərsiz şeirlərinin çoxu da hürufilik ideyalarının bədii ifadəsinə və təbliğinə xidmət edir. İmadəddin Nəsimi, dini baxımdan mövqeyi, fəlsəfi düşüncələri və bir sıra xüsusiyyətləri ilə ziddiyyətlərlə dolu bir

şəxsiyyətdir. Tarixin şahid olduğu bir sıra dahilər kimi, Nəsimi haqqında da birmənalı mövqeyə sahib olmaq qeyri-mümkündür.

Nəsimi “Zərrə mənəm, günəş mənəm, çar ilə pəncü şeş mənəm”, - deyərək bildirir ki, zərrə insanın ilkin yaranışı, kainatın təkamülüdür. İnsan zərrələrdən ibarətdir. “Çar mənəm" dedikdə insanın yaranışında olan dörd ünsür nəzərdə tutulur. Torpaq, su, od, hava. “Pəncü” insanda olan duyğu üzvlərini - göz, burun, qulaq, əl, ağız və bədənin bütövlükdə sinir sistemini təşkil edir. “Şeş” - altı cəhəti - ön, arxa, sağ, sol, aşağı, yuxarı istiqamətləri göstərir. Yəni insanın bütün külli-kainatla vəhdətdə olmasını bildirirdi. Bu da metofizik fəlsəfəni özündə cəmləşdirirdi ki, Nəsimi öz əsərlərində bu məsələyə geniş yer ayırıb.

1394-cü ildə Nəimi edam edildikdən sonra onun "Vəsiyyətnamə"sinə əsasən Nəsimi Təbrizə, oradan da Anadoluya getmiş, hürufilik fikirlərini yaydığı üçün dəfələrlə zindana salınmışdır. Nəsimi mürəkkəb yaradıcılıq yolu keçmişdir. Mürşidinin ölümündən sarsılan İ.Nəsimi bu münasibətlə yanğı və iztirab hissi ilə dolu məşhur «Ayrılır» rədifli qəzəlini yazmışdır [3, s. 61].

Qur’ani-Kərimdə: dünya Allahın “kun!” (ərəbcə “ol”, “yaran!”) hökmündən yaranmışdır yazılmışsa, Nəsimi bu yazını anlatmağa çalışaraq onun “kafu nundan” yarandığını söyləyirdi. Bununla o, ərəb yazısındakı “kəf” və “nun” hərflərinin içərisində dünyanın yaranış sirlərinin saxlandığını sübuta yetirməyə çalışırdı. Çünki ərəb yazısında sait səs işlənmədiyi üçün Qur’andakı “kun” sözü yalnız iki hərfin, “kəf” lə “nun”un birliyi şəklində yazılırdı ( كُنْ- **“Kun” - Ol ) [2, s.300].**

Hürufilik çox müxtəlif şəkillərdə izah olunmuşdur. Bəzi tədqiqatçılara görə bir din, bəzilərinə görə isə sadəcə bir məzhəbdir. Bu ziddiyyətlərə baxmayaraq, tədqiqatçıların birləşdiyi ortaq nöqtə hürufiliyin hərflərlə olan əlaqəsidir.

Hürufilər “vəhdəti-vücud” konsepsiyasını ciddi bir nəzəriyyə kimi qəbul edirlər. Onların əqidəsinə görə Allah təbiət, əşya, insan və bütün kainat, bir sözlə, mənəvi olanla maddi olan, xaliqlə məxluq vəhdətdədir.Bununla belə, hürufiliyin başqa təriqət, cərəyan və təlimlərdən əsaslı bir fərqi onların hər şeyi söz və hərfə bağlamaları idi. Elə təriqətin adı – hürufilik – də buradan irəli gəlir.

Nəsiminin hürufi ideyaları dövrün mürtəce ruhaniləri tərəfindən davamlı müqavimətə rast gəlirdi. Onun panteist fitkirləri yanlış izah edilirdi. Nəticədə, Misir məmlükləri və Hələb ruhaniləri şairi dinsizlikdə günahlandıraraq 1417-ci ildə Hələb hökmdarının əmri ilə zindana saldılar. Məhz buna görə də Nəsimi dini ifadələrdən geniş istifadə yolu ilə fikirlərini yaymağa çalışırdı. O öz şeirlərində birinci növbədə cahilinsanları tənqid edir, həyat gözəlliklərindən ilham almağa çağırırdı. Şəhər ruhanilərinin məclisində Nəsimi mühakimə edilir və ölümünə fitva verilir. Bir qədər sonra şəriət məhkəməsinin sənədləri ilə tanış olan Misir sultanı Əl-Müəyyəd şairin diri-diri dərisinin soyulub, yeddi gün Hələb şəhərində hamıya göstərilməsi haqqında əmr verir. Beləliklə, Nəsimi faciəli bir şəkildə edam edilir. Şairin zindan günlərində həbsdə yazdığı cəsarətli şeirləri,mühakimə zamanı mərdanə davranışı, məntiqi cavabları, mətin iradəsi xalq arasında danışılmış, əfsanə kimi dillərdə, ağızlarda söylənmişdir.

Orta əsrlər, xüsusilə də XIV-XV yüzilliklər Azərbaycan dini-fəlsəfi və bədii fikir tarixini hürufilik təlimi və ideyalarını nəzərə almadan təsəvvür etmək mümkün deyil. Onun bədii ədəbiyyatda yaratdığı əks-səda o qədər güclüdür ki, XIV-XV əsrlər ədəbiyyatımızın əsas ağırlıq yükü və tarazlıq mərkəzi bu təriqətin ideyaları və baxışları ilə bağlı bədii-poetik təfəkkürün yaratdığı söz sərvətinin üzərinə düşür. Bu mənada təkcə hürufiliyin “bədii dili” İ.Nəsimini xatırlatmaq kifayətdir. Əsası Fəzlullah Nəimi tərəfindən qoyulan və Nəsimi yaradıcılığında daha yüksək zirvəyə çatdırılan hürufilik təlimi və onun ideyaları sonrakı dövrlərdə Azərbaycanın bir çox mütəfəkkirlərinin, habelə siyasi- hüquqi fikir cərəyanlarının fəlsəfi, siyasi və hüquqi dünyagörüşünün formalaşmasının ideoloji əsasını xidmət etmişdir.

XIV-XVI əsrlər ədəbiyyatımızda F.Nəimi, İ.Nəsimi, M.C.Həqiqi, Həbibi, Süruri, Tüfeyli, Heyrəti, Mühiti və başqaları hürufiliyə bağlı sənətkarlar kimi tanınır.

Qeyd etmək lazımdır ki, Nəsimi irsinin xalqımızın mənəviyyat xəzinəsində layiqli yerini tutması, hələ ötən əsrin 70-ci illərində başlayıb. O dövrdə xalqımızın Ümummilli lideri Heydər Əliyevin Sovet nümayəndə heyətinin başçısı kimi Suriyaya rəsmi səfəri zamanı Hələb şəhərinə gedərək Nəsiminin məzarını ziyarət etmək istəyi bu yolun əsasını qoyub. Tarixi-mədəni irsimizə daim yüksək dəyər verən Ümummilli lider Heydər Əliyev bütün maneələri dəf edərək, öz şəxsi təşəbbüsü ilə Azərbaycan ədəbiyyatının görkəmli nümayəndələrindən ilk dəfə Nəsiminin 600 illik yubileyinin YUNESKO-nun tədbirləri siyahısına daxil edilməsinə və 1973-cü ildə beynəlxalq miqyasda qeyd olunmasına nail ola bilib. Bütün bu işlərin Ulu Öndər Heydər Əliyevin siyasi və mənəvi varisi olan Cənab Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilməsi, onun xalqımızın milli dəyərlərinə münasibətinin bariz göstəricisidir [6]. İmadəddin Nəsiminin 650 illik yubileyinə həsr olanın silsilə tədbirlər həm də ölkəmizin bir çox ali təhsil ocaqlarında keçirilib. Dövlət başçısının Nəsiminin 650 illiyinin yüksək səviyyədə qeyd olunması və 2019-cu ilin "Nəsimi ili" elan edilməsi barədə verdiyi sərəncam, bütün Nəsimisevərləri şairin yaradıcılığının çox ciddi şəkildə öyrənilməsi, araşdırılması və təbliğ edilməsi istiqamətində böyük işlər görməyə sövq etdi. Bu, həm də Azərbaycan xalqının mənəvi dəyərlərinin bir daha dünyada geniş təbliğinə imkan yaratdı. İnkarediməz faktdır ki, multikultural dəyərlər əsrlər boyu əcdadlarımızın qanında, dünyagörüşündə, psixologiyasında formalaşaraq inkişaf edib və bugünkü səviyyəyə çatıb. Onu da fəxrlə deyə bilərik ki, minillik tarixə malik klassik ədəbiyyat nümunələrində də biz bunlara tez-tez rast gəlirik. Azərbaycanın söz sahibləri, dahi mütəfəkkirlərimiz özlərinin fəlsəfi düşüncələri ilə hər zaman bəşəriyyəti bütöv kimi qələmə veriblər, ayrıayrı xalqları, dinləri bir-birinə yaxınlaşdırıb, insanları dininə, dilinə və irqinə görə deyil, dəyərlərinə görə qiymətləndiriblər. Müxtəlif dinlərə, xalqlara hörmət və ehtiram Nəsimi şeiriyyətində, qəzəllərində də öz əksini tapıb, əsərlərində dövrün mütərəqqi fikirlərini tərənnüm və təbliğ edib. Nəsimi həm də Nizaminin davamçısı olaraq onun Şərq ədəbiyyatına gətirdiyi qabaqcıl ideyaları daha da inkişaf etdirməyə çalışıb, bu yolda ölümə belə gedərək fədakar şair kimi öz adını tarixə yazdırmağı bacarıb [7].

## ƏDƏBİYYAT


1. Araslı H. "İmadəddin Nəsimi. Seçilmiş əsərləri". II cilddə, I cild, Bakı, 2004, 336 s.
2. Azərbaycan tarixi uzaq keçmişdən 1870-ci illərə qədər (S.Əliyarlının redaktəsi ilə). Bakı, 2009, 872 s.
3. Babayev Y. "Təriqət ədəbiyyatı:sufizm, hürufizm". Bakı, 2007, 128 s.
4. Bünyadov Z. "Dinlər, təriqətlər, məzhəblər". Bakı, 2007, 336 s.
5. Gəncalp G. "Hürufilik nədir, nə deyildir". Dərgah, 2006. 95 s.
6. https://president.az/az/articles/view/30722
7. https://www.elibrary.az/docs/qazet/qzt2020_656.pdf

УДК 94(479.24)

*Эльгюн Магомедали оглы Асланов,*
*Дунья Халик кызы Гасанова*
*Азербайджанский Государственный Аграрный Университет*

## АЗЕРБАЙДЖАНСКАЯ ИСТОРИЯ И КУЛЬТУРА ХУРУФИЗМА
*РЕЗЮМЕ*

*Ключевые слова:* хуруфизм, философия, религия, литература, культурное наследие, Азербайджан

Появление и развитие хуруфизма в истории и культуре Азербайджана продолжают привлекать внимание исследователей благодаря его глубокому философскому и религиозному влиянию. Это течение оказало значительное воздействие не только на литературное наследие, но и на духовную жизнь региона в целом. Хуруфизм, с его уникальным подходом к пониманию букв и символов как носителей божественной истины, формировал особую идеологическую базу, которая отражалась в творчестве таких поэтов, как Насими и другие.

В данной статье рассматривается истоки хуруфизма, его философские концепции, а также распространение движения в различных регионах Ближнего и Среднего Востока. Особое внимание уделяется роли хуруфизма в формировании национальной идентичности и культурного самосознания азербайджанского народа. Анализируются ключевые тексты и идеи, которые продолжают оказывать влияние на современное литературное и философское мышление.

В заключение подчеркивается, что хуруфизм, несмотря на свою сектантскую природу и неоднозначное восприятие, занимает важное место в истории духовного развития Азербайджана и продолжает оставаться предметом изучения и интерпретаций в современной науке.

UDC 94(479.24)

*Elgun Mahammadali Aslanov,*
*Dunya Khalig Hasanova*
*Azerbaijan State Agrarian University*

## *HURUFISM IN THE HISTORY AND CULTURE OF AZERBAIJAN*
*SUMMARY*

*Keywords:* hurufism, sect, philosophical thought, letter, ideology, movement

The organization of Hurufism in Azerbaijan began at the end of XIV century. The philosophical and religious ideas of the Hurufists were influenced by the philosophies of the Middle and Near East. Hurufism, known in Azerbaijan through its representatives such as Naimi, Nasimi, Sururi, and Ali-ul Ala, spread over wide areas. Hurufism encompassed many regions (Iran, Azerbaijan, Syria, Ottoman Empire). The main representatives of this sect were peasants and urban intellectuals.

Nasimi, as one of the well-known representatives of the Hurufist doctrine, played an important role in the spread of this doctrine. Traces of Hurufist philosophy are clearly visible in his poems. In general, the Hurufist heritage continues to live on in the literature and spiritual life of the Azerbaijani people to this day.

***Daxil oldu: 17.11.2025-ci il***